SADAT ADIŞOV

# KÜL ALTINDAKI XATİRƏLƏR

QANUN NƏŞRİYYATI

*Qarşınızdakı “Kül altındakı xatirələr” kitabı Sadat Xuduoğlunun sayca dördüncü kitabıdır. Bu kitab müəllifin özünəməxsus yazı üslubunu saxlayan, rəvan və oxunaqlı dillə yazılmışdır. “Gəlin daşı” povesti tanınmış yazıçının keçmişimizdə baş verən hadisələrin bədii təxəyyülü ilə zinətlənmiş çox maraqlı əsəridir. Povestdə Hüseynəli bəy, Bilal, Qənbər, Nəcəfqulu bəy, Səməndər bəy və digər obrazlar real tarixi şəxsiyyətlər olduğu üçün oxucu yaddaşına yeni çalarlar əlavə edəcək və uzun müddət təsirini saxlayacaqdır. Əsərdə Həsənəli-Sara xətti təmiz sevgi dastanı kimi hadisələrə əlavə rəng qatır. Kitabın ikinci hissəsində müəllifin lirikasından nümunələr yer almışdır. Burada ictimai-fəlsəfi və məhəbbət mövzularında yazılmış səmimi şeirlərin oxucu zövqünü oxşayacağına dərin əminlik vardır.*

# GƏLİN DAŞI

*povest*

Günorta vaxtı çoxdan keçmişdi. Günəşin Xoca döngənin başına sancılmağına az qalırdı. Hər gün bu vaxtlar kənd adamları “Ker başı” deyilən təpəyə çıxır, heyvan-qaranın qarşı dağdakı meşədən enib kəndə gəlməsini izləyirdi. Oradan meşəyə gedən yollar açıq-aydın görünürdü. Adətən, heyvan-qara axşama yaxın meşənin dərinliklərindən açıq talalara çıxır, otlaya-otlaya kəndə tərəf enir, şər qarışana yaxın sahibinin evinə çatırdı. Hər kəs, təxmini olsa da, öz heyvanının otladığı yeri bilirdi. Ona görə də hər kəs Ker başında əlini qaşına qoyub hansı heyvanın harada olduğuna baxırdı.

Payız aylarında sağılmayan heyvanların çoxu, hətta sağmalların da bəzisi gecələri meşədə qalırdı. Qarşıdan gələn qışın çətinliyini instinktiv duyan heyvanlar üçün örüşdə bacardıqca yeyib-kökəlmək istəyi hər gün enişli-yoxuşlu dağ yolunu qət edib sahibinin evinə qayıtmaq borcuna üstün gəlirdi. Amma, şüursuz heyvanlar belə etdikdə canavara yem ola biləcəyini anlamırdı. Çox vaxt axşam evə qayıtmayan heyvanın dalınca sahibi səhər tezdən

axtarışa çıxanda onun ya sür-sümüyünü görür, ya da yaralı halda tapırdı. Ona görə də axşamlar hamı bu mərəgaha çıxır, heyvanlarının gəlmədiyini tez aşkar etdikdə cəld meşəyə axtarışa yollanırdı.

Həmin gün mən Ker başına çıxanda Kərəm kişini də camaatın içində gördüm. Onun yaşı yüzdən çox olsa da, hələ qıvraq idi. Əlinə çəliğ alsa da, dizlərində hələ təpər var idi, necə deyərlər, canı sulu idi. Kərəm kişi bir neçə ay olardı ki, şəhərdə idi. Orada yaşayan övladları dilə tutub yarıxoş-yarızor evlərinə aparmışdılar. İndi də kişi evinə qayıdan kimi həmişəki adəti üzrə mallarının "pişvazına" çıxmışdı. Onu görəndə çox sevindim. Yanına gedib salam verdim, qucaqlayıb ağappaq saqqalından öpdüm. Kənd camaatı kimi mən də ona baba deyirdim.

– Nə vaxt gəldin, baba?

O, gözünü yoldan ayırmadan qaşlarını qaldırdı və dedi:

– Bu gün gəlmişəm, bala. Elə bir az vaxtdı qayıtmağım. Evdə dura bilmədim, neçə vaxtdı burdan ayrılmışam. Dedim, bir çıxım, camaatnan da görüşüm.

Onun evi buraya yaxın idi. Son illərdə hamıdan çox Kərəm baba buraya gələr, kolların biri üstə oturub gözlərini dağa dikələn yola zilləyər, öz aləminə qapanardı.

– Baba, kiminlə gəldin? Xoşuna gəldi şəhər? Oradakılar necədi? – deyə soruşdum.

– Böyük oğlanla, Muradla gəldim, – Kərəm baba fikirli halda cavab verdi. – Heç gəlməyə qoymurdular, amma qala bilmədim, bala. Orada qalıb yaşamaq mənlik deyil.

O hələ də gözlərini kəndə uzanan yoldan çəkmirdi. İti baxışları onu yaşından çox cavan göstərirdi.

– Niyə, baba? Axı şəhər burdan yaxşıdır. Odun-ocaq, mal-qara dərdi çəkmirsən orda. Düz demirəm? – Mən onu danışdırmaq istəyirdim.

– Ay bala, sən də mənim uşaqlarım kimi danışırsan. Elə bil hamınız dilbir olub eyni sözü deyirsiniz.

– Yaxşı, hirslənmə, baba. Yaxşısı budur ki, bu iki-üç ayda haralarda olduğundan danış. Uşaqlar səni kinoya, teatra aparmamış olmaz. Yəqin gəzintilər də oldu. Xoşuna gəldimi gəzdiyin yerlər?

Kərəm baba şəhərdə olduğu müddətdə gəzdiyi, gördüyü yerlər, danışdığı adamlar, Muradla elədiyi söhbətlərdən danışmağa başladı. O, bilirdi ki, mən onun söhbətini çox xoşlayıram. Hər dəfə olub-keçənlərdən danışanda neçə-neçə maraqlı hadisələrlə tanış oluram. Bəzən də mən öz eşitdiyim hadisələri ondan daha ətraflı danışmasını xahiş edirəm.

İti yaddaşı vardır Kərəm babanın. Hər bir hadisənin nə vaxt baş verdiyini dəqiq xatırlayır, ətraflı təsvir edərək maraqla danışırdı. İndi də şəhərdə gör-

düklərindən danışdı və başa düşdüm ki, oralar çox da xoşuna gəlməmişdir. Kişi kənddən ötrü bərk darıxırmış. Kərəm baba övladlarının həyat şəraitinin yaxşı olmasına sevinsə də, onların atası üçün təşkil etdiyi qonaqlıqlar, bol-bol yemək-içmək, gözəl yerlərə səyahətlər, qulluq tutmaqları da kişini şəhər həyatına bağlaya bilməmişdi. Sanki, orada havasızlıqdan boğulurdu. İstər Xəzər sahilində, istərsə də Ceyranbatan gölünün ətrafında, şam, küknar, tozağacı ağaclarının, rəngbərəng gül-çiçəyin əhatəsində ciyər dolusu hava ala bilməmişdi. Bu ağaclar ona yad, ögey idi. Orada ayaq basdığı torpaqda nil, palıd, vələs, qızılgöz ağaclarının yarpaqları yox, nazik iynəyə bənzər qəribə yarpaqlar olurdu. Övladları belə parklarda istirahət etməyin, yeyib-içməyin ləzzətindən danışıb onu əyləndirməyə çalışsalar da, Kərəm baba qəlbində deyirdi: "Axx, məndən olub mənə oxşamayanlar! Görün siz nəyi tərifləyirsiniz ee... Kəndimizin çöldə bitən qaratikan kollarını da bu ağaclara dəyişmərəm. Qaldı ki, qaragilə, sirgilə, gillik, ardıc, əzgil kolları... Ya da ki, meşənin bəzəyi olan nəhəng ağaclar! Onların yerin dünyanın heç bir ağacı verə bilməz".

Övladlarının ağızdolusu təriflədiyi şəhər gözəlliklərini dinlədikcə, geniş küçələr, prospektlər kimi onların sözlərindən də sıxılırdı. O, şəhər həyatına bağlana bilmirdi. Ən çox da övladlarının: "Əşşi, nə

var kənddə? Qal yanımızda, dinc yaşa da özünçün. Sən bu yaşında kənddə mal saxlayıb torpaq şumlayanda el-hampa bizim haqqımızda nə düşünər?” – dedikləri söz toxunurdu ona. Kişi onların qəlbinə toxunmaq istəmədiyi üçün şirin sözlə, yumşaq münasibətlə vəziyyəti gərginləşdirmirdi:

– Yox, ay bala! Hər kəsin öz yuvası özü üçün doğmadır, rahatdır. Kimin nə işinə qalıb mən harda qalıram, nə iş görürəm.

Elə kəndə qayıdanda da hər dəfə mübahisə başlayırdı. Ona deyirdilər ki, madam qala bilmirsən burada, onda səni öz maşınımızla aparaq kəndə. Hamımızın maşını var, şükür. Qoy bir gün ora, bir gün də geri vaxtımız getsin sənə görə. Yol maşını ilə getməyini görənlər bizə nə deyər? Amma Kərəm kişi razılaşmırdı:

– Ay bala, kimin nə işinə mən nəylə gedirəm? Mənə necə xoşdursa, elə də edirəm. Mənə görə işinizdən olmalısınız?

Bu dəfə də Kərəm baba kəndə gəlmək istəyəndə övladları ilə xeyli çək-çevir olmuşdu, amma axırda onlara güzəştə gedərək böyük oğlu Muradın maşınında evə qayıtmağa razılaşmışdı. Bu, onların ilk birgə uzun səfəri idi. Əvvəlcə söhbətləri səmimi, şirin keçsə də, getdikcə qızışmışdı. Murad həmişəki kimi müasir həyatla keçmişi, şəhərlə kəndi müqayisə edir, böyük-kiçik münasibətlərinə toxunur,

kişinin xətrinə dəyəcəyini düşünmədən çox yuxarıdan, nəsihətverici tərzdə nəticələr çıxarırdı. Kişi həmişəkindən fərqli olaraq susur, söhbətə dərindən müdaxilə etmirdi. Muradın isə sinəsi dolu olduğundan atasının susmasından istifadə edərək dayanmadan subyektiv arqumentlər gətirir, danışırdı. Yolüstü dayanıb çayxanaya döndülər. Kişi əl-üzünü yudu, bir az qırışığı açıldı. Çay içib yenidən yola davam etdilər. Bir az gedəndən sonra Murad atasına tərəf dönüb dedi:

– Hə, ata, heç danışmırsan. Heç demirsən dediklərim düzdür, ya səhv?

Kərəm baba inadla susaraq ətrafa baxırdı.

– Ata, niyə susursan? Danış da.

Kərəm baba havası çatmırmış kimi dərindən nəfəs aldı, yarızarafat dedi:

– Ay bala, sür maşını, çıxaq gedək. Neynirsən mənim danışmağımı? Mən danışsam, yenə verişəcəyik bir-birimizə, mən də acıq eləyib düşəcəyəm sənin maşınından, qalacağam Salyanın düzündə. Onsuz da mən deyənləri sən qəbul etmirsən, sən deyənlər də mənim ürəyimcə olmur. Hadisələrə baxışlarımız müxtəlifdir. Az mübahisələrimiz olub bu barədə? Nə deyəcəyimi də əzbər bilirsən. Kim yeniliyin əleyhinədir? Amma, valideyn-övlad arasında pərdə olmalıdır. Nə qorxu, nə də aşıq-saçıqlıq. Orta bir yol seçib elə də yaşamalısan. Qadınlarımız hicabdan